# AZƏRBAYCAN RESPUBLIKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/59** **22 oktyabr 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında" sərəncamında dəyişiklik edilməsi barədə**

"İnvest Audit" MMC-nin auditoru Yaşar İdris oğlu Qiyasov tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış həmin auditorun "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların siyahısına daxil edilməsi barədə" 19 sentyabr 2019-cu il tarixli müraciətini və Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinin rəis müavini B.Qasımovanın 22 oktyabr 2019-cu il tarixli təklifini nəzərə alaraq **qərara alıram:**

1. "İnvest Audit" MMC-nin auditoru Yaşar İdris oğlu Qiyasov 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında" sərəncamda göstərilən siyahıya daxil edilsin.
2. "İnvest Audit" MMC-nin auditoru Yaşar İdris oğlu Qiyasova tapşırılsın ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb edildiyi təqdirdə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda"nın tələblərinə ciddi riayət etsin.
3. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**